

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 14 may 2022-ci il №36 (2647) https://mod.gov.az Qiymıəti 30 qəpik

*Təlim*

## “Hazırlıqlı ordunun qələbəsi mütləqdir”



***Vətən torpağı müqəddəsdir. Tarix bizə sübut edir ki, xalqımızın igid oğulları hər zaman ana Vətənin keşiyindədirlər. Onlar Vətən torpağının hər qarışı uğrunda canından keçməyə hər zaman hazırdırlar. Vətənə olan məhəbbəti canından üstün tutanlar 2016-cı ilin Aprel döyüşlərində və İkinci Qarabağ müharibəsində qorxmazlıq və mərdlik nümayiş etdirərək qəhrəmanlıq salnamələri ilə tarix yazdılar.***

Minlərlə gəncimiz işğalçılara qarşı döyüşmək, Vətən torpağını azad etmək üçün irəli atıldı. Xalqına güvənən ordu, ordusuna güvənən xalq qələbəyə kökləndi. Millətimiz bir yumruq tək həmrəylik nümayiş etdirərək xalq-ordu birliyinin nümunəsi oldu. Əsgərlərimiz səngər-səngər, döyüş-döyüş irəlilədikcə xalqın sevinc harayı dünyaya car çəkirdi. "Qələbə bizimdir!", "Qarabağ Azərbaycandır!" şüarları düşməni qorxuya salırdı. Qorxu isə düşmənin məğlubiyyətinin təməliydi. Bütün dünya Azərbaycan xalqının nələrə qadir olduğunu bir daha gördü, əsl vətənpərvərliyin şahidi oldu. Bu cür dəstəkdən və Ali Baş Komandanın siyasi iradəsindən ilham alan cəsur döyüşçülərimiz yeni qələbələrə köklənir, Qarabağı kənd-kənd, rayon-rayon, şəhər-şəhər azad edirdilər.

Sürətlə irəliləyən Azərbaycan Ordusu bizə əcdadlarımızdan əmanət qalan yurdumuzu 44 gün ərzində işğalçılardan azad etdi. Düşməni tarixi torpaqlarımızdan qaçmaq məcburiyyətində qoydu. Bundan başqa, haqq savaşımızın gedişatında Ermənistan dövlətinə ağır siyasi və iqtisadi zərbələr endirildi. Heç bir qüvvənin durdura bilmədiyi Azərbaycan Ordusunun gücü Ali Baş Komandanın illərlə döyüş hazırlığının yüksəldilməsinə yönələn ordu quruculuğu siyasətinin təzahürü oldu.

İkinci Qarabağ müharibəsindəki Zəfərdən sonra da ordumuzda şəxsi heyətin sosial-məişət şəraitinin və döyüş hazırlığının daha da yüksəldilməsi istiqamətində Ali Baş Komandan İlham Əliyevin tapşırıqları səngimədən həyata keçirilir. "N" hərbi hissəsində bunun canlı şahidi olduq. Şəxsi heyət praktiki məşğələlərdə döyüş hazırlığını artırırdı.

Dərs prosesindən sonra baş leytenant Laçın Qənbərov ilə həmsöhbət olduq. O bildirdi ki, 2022-ci il döyüş hazırlığı planına uyğun olaraq, döyüş qabiliyyətinin artırılması məqsədilə məşğələlər və dərslər planlaşdırılmış qaydada həyata keçirilir. “Şəxsi heyət ixtisas, atəş və taktiki biliklərini təkmilləşdirir. Vətən müharibəsində qazanılan döyüş təcrübəsi nəzərə alınmaqla tanklarla şərti düşmənə qarşı atəş tapşırıqları praktiki olaraq icra edilir”.

Öyrəndik ki, gənc zabit torpaqlarımızın azadlığı, ərazi bütövlüyümüzün bərpası uğrunda gedən döyüşlərin iştirakçısıdır. Laçın Qənbərov tank bölməsinin komandiri olaraq Vətən müharibəsinə qatılıb. Onun rəhbərlik etdiyi bölmə düşmənin qruplaşmalarını və texnikasını məhv edib, ona ağır itkilər yaşadıb. Mənfurların xeyli sayda atəş nöqtələrini, sığınacaqlarını, postlarını, tank və digər zirehli texnikalarını yararsız hala salıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə tarixi ərazilərimizin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə görə Qənbərov Laçın Şakir oğlu "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunub.

"Azərbaycan Ordusunda xidmət etmək hər birimiz üçün qürurdur", - deyən Laçının gözlərindən Vətən sevgisi aydın sezilirdi. “Müharibə zamanı da şahid olduq ki, hər bir azərbaycanlının qəlbi Vətən sevgisi ilə döyünür. Bu hisslər düşmənə sarsıdıcı zərbələr endirməyə güc verirdi. Hər sarsıdıcı zərbəylə qələbəyə köklənir, ərazilərimizi qarış-qarış işğalçı qüvvələrdən təmizləyirdik. Düşmən anladı ki, özgə torpağına göz qoyan gözündən olar. Bu da nəticə - Azərbaycan Ordusu qələbə qazandı".

(Ardı 3-cü səhifədə)



Nizami rayonu “Şahin” hərbi-idman oyununun qalibi olub

3-cü səhifədə



“Azərbaycanın müasir tarixinin bütöv bir dövrü ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır”

4-cü səhifədə



“Milyonların qəlbində yaşayan Lider” mövzusunda elmi-praktik konfrans keçirildi

7-ci səhifədə



“Sağlam əsgər - döyüşə hazır əsgərdir”

8-ci səhifədə

# Azərbaycanın müdafiə naziri Qazaxıstan Respublikasının Müdafiə Nazirliyinin Baş Kəşfiyyat Departamentinin rəisi ilə görüşüb





Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, mayın 12-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Qazaxıstan Respublikasının Müdafiə Nazirliyinin Baş Kəşfiyyat Departamentinin rəisi general-leytenant Serik İztleuovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Qonaqları salamlayan müdafiə naziri dövlətlərimiz arasında əlaqələrin möhkəm tarixi bazaya və mehriban qardaşlıq münasibətlərinə əsaslandığını bildirib.

General-polkovnik Zakir Həsənov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan Qələbədən sonra azad edilən ərazilərdə görülən işlərlə bağlı nümayəndə heyətinə ətraflı məlumat verib.

Müdafiə naziri, həmçinin Vətən müharibəsində əldə edilən döyüş təcrübəsi və Türkiyə Silahlı Qüvvələrinin modeli nəzərə alınmaqla Azərbaycan Ordusunda aparılan islahatlardan danışıb.

Qazaxıstan Respublikasının müdafiə nazirinin salamlarını çatdıran general-leytenant S.İztleuov hərbi əməkdaşlığın genişləndirilməsi baxımından qarşılıqlı səfərlərin vacibliyini qeyd edib.

Görüşdə hər iki ölkənin hərbi qulluqçularının peşəkarlıq səviyyələrinin yüksəlməsində birgə təlimlərin keçirilməsinin vacibliyi xüsusi vurğulanıb.

Sonda hərbi, hərbi təhsil və hərbi kəşfiyyat sahələrində əməkdaşlığın cari vəziyyəti, inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

# Azərbaycanın müdafiə naziri Türkiyə Respublikasının Milli Təhlükəsizlik Şurasının Baş katibi ilə görüşüb





Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, mayın 12-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının Milli Təhlükəsizlik Şurasının Baş katibi cənab Seyfullah Hacımüftüoğlunun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Qonaqları salamlayan müdafiə naziri dövlət başçılarının qardaşlıq və dostluq münasibətlərinin hər iki ölkə arasında əməkdaşlığa böyük töhfə verdiyini xüsusi vurğulayıb.

General-polkovnik Zakir Həsənov ölkələrimiz arasında digər istiqamətlərdə olduğu kimi, hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində də əlaqələrin yüksək səviyyədə olmasından məmnunluğunu bildirib. Müdafiə naziri bu münasibətlərin regionda sülhün, təhlükəsizliyin və əmin-amanlığın möhkəmlənməsinə xidmət etdiyini deyib.

Səmimi qəbula görə təşəkkürünü bildirən cənab S.Hacımüftüoğlu qarşılıqlı əlaqələrin bundan sonra da inkişaf etdirilməsinin vacibliyini qeyd edib.

Görüşdə Azərbaycan-Türkiyə əməkdaşlığının inkişaf perspektivləri, habelə maraq doğuran bir sıra məsələlər barədə fikir mübadiləsi aparılıb.




# "Əsgərin kitab rəfi" adlı kitab toplama aksiyası davam edir

Müdafiə Nazirliyi "İrəli" İctimai Birliyi ilə birgə tərəfdaşlıq çərçivəsində "Əsgərin kitab rəfi" adlı kitab toplama aksiyasına davam edir.

"İrəli" İctimai Birliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, aksiya çərçivəsində elmi, bədii, publisistik və digər janrlarda kitablar toplanacaq. Toplanan kitablar işğaldan azad edilmiş ərazilərdə xidmət edən əsgərlərə üstünlük verməklə bütün hərbi qulluqçularımıza çatdırılacaq.

Birlik bütün gəncləri, təhsil müəssisələrini, qeyri-hökumət təşkilatlarını, özəl sektor və media nümayəndələrini aksiyada fəal iştirak etməyə çağırır.

Qeyd olunub ki, kitab hədiyyə etmək istəyən şəxslər Bakı şəhəri üzrə "İrəli" İctimai Birliyinin ofisinə, regionlar üzrə isə Heydər Əliyev Mərkəzlərində yerləşən Gənclərin İnkişaf və Karyera Mərkəzinin nümayəndəliklərinə yaxınlaşa bilərlər.



# Azərbaycan Ordusunun Baş Qərargah rəisi qazaxıstanlı nümayəndə heyəti ilə görüşüb

*Mayın 12-də Azərbaycan Respublikasının müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev ölkəmizdə səfərdə olan Qazaxıstan Respublikasının Müdafiə Nazirliyinin Baş Kəşfiyyat Departamentinin rəisi general-leytenant Serik İztleuovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, qonaqları salamlayan general-polkovnik Kərim Vəliyev iki dövlətin orduları arasında hərbi əməkdaşlığın möhkəmlənməsində bu cür görüşlərin və qarşılıqlı əlaqələrin genişləndirilməsinin zəruriliyini vurğulayıb.

Azərbaycana səfərindən məmnunluğunu ifadə edən general-leytenant S.İztleuov hərbi əməkdaşlıq sahəsində təcrübə mübadiləsinin mühüm əhəmiyyət kəsb etdiyini bildirib.

Görüşdə əməkdaşlığın inkişaf perspektivləri, eləcə də maraq doğuran digər məsələlər müzakirə edilib.

# Nizami rayonu "Şahin" hərbi-idman oyununun qalibi olub






"Şahin" hərbi-idman oyununun final mərhələsi keçirilib.

AZƏRTAC Gənclər və İdman Nazirliyinin saytına istinadla xəbər verir ki, Hərbi Qənimətlər Parkının yanında hazırlanmış xüsusi zonada təşkil edilən final oyunu təntənəli açılış mərasimi ilə başlayıb.

Yarış iştirakçılarının hərbi paradından və sıra düzülüşündən sonra gənclər və idman naziri Fərid Qayıbov, təhsil nazirinin müavini Firudin Qurbanov, Müdafiə Nazirliyinin idarə rəisinin müavini Elşad Əbilov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin idarə rəisi Füzuli İsmayılov, Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini Cəlil Xəlilov çıxış edərək idmançılara uğurlar arzulayıblar.

Xüsusi təyinatlı hərbçilərin nümunəvi çıxışlarından sonra yarış iştirakçılarının mübarizəsinə start verilib. Zona yarışlarının qalibi olan 18 komandanın mübarizəsində qalib adını Nizami rayonu "Şahin"ləri qazanıblar. İkinci yeri Sumqayıt, üçüncü yeri isə Ordubad məktəbliləri tutublar.

Mayın 11-dən isə həmin məkanda "Cəsur kadet" sınaq günləri keçiriləcək.

Beş gün davam edəcək tədbirdə hər bir vətəndaş müxtəlif yaş qrupları və normativlər üzrə öz bacarıqlarını sınaya bilər.

Tədbir bütün əhali üçün açıq olacaq, iştirak üçün öncədən qeydiyyata ehtiyac yoxdur.



# Xəzər dənizində aşkar edilən minalar zərərsizləşdirilib



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Xəzər dənizinin Azərbaycan sektorunda aparılan ərazi kəşfiyyatı zamanı suyun 60 metrədək dərinliyində aşkar edilən 6 ədəd böyük gəmi minasının (КБ-1) zərərsizləşdirilməsi prosesi mayın 10-da uğurla başa çatıb.

Hərbi Dəniz Qüvvələrinin aidiyyəti üzrə gəmiləri və ixtisaslaşdırılmış mütəxəssisləri tərəfindən minalar təhlükəsizlik tədbirlərinə əməl edilməklə digər dövlət qurumları ilə qarşılıqlı əlaqədə zərərsizləşdirilib.

Minaların zərərsizləşdirilməsi prosesinə ümumilikdə 4 hərbi gəmi, 4 kater və 133 nəfər hərbi qulluqçu cəlb olunub.

Hazırda Xəzər dənizinin Azərbaycan sektorunda bütün fəaliyyətlər adi qaydada davam etdirilir.

# "Hazırlıqlı ordunun qələbəsi mütləqdir"

(Əvvəli 1-ci səhifədə)

Daha sonra baş leytenant Qənbərov bizi şəxsi heyət ilə tanış etdi. Bildirdi ki, burada xidmət edən hərbçilərimizin peşəkarlığı danılmazdır, çünki bilik səviyyələri yüksəkdir. Daim çalışır, hərbi biliklərini daha da artırırlar. Hər birinin məqsədi Vətənə olan övladlıq borcunu şərəf və ləyaqətlə yerinə yetirməkdir.

Gizir Sərxan Güləliyev qeyd etdi ki, başlıca vəzifəmiz döyüş tapşırığının uğurla yerinə yetirilməsidir. "Bu səbəbdən illik döyüş hazırlığı planına əsasən, dərslər və məşğələlər keçirilir. Vətən müharibəsi göstərdi ki, hazırlıqlı ordunun qələbəsi mütləqdir. Uzun illər dəfələrlə atəşkəsi pozan namərd düşmən hər dəfə cavab atəşi ilə susdurulurdu. Buna baxmayaraq, yeni təxribatlar törətməyə qalxırdılar. Ali Baş Komandanımızın döyüş əmrini səbirsizliklə gözləyən ordumuz 2020-ci il sentyabrın 27-də erməni silahlı qüvvələrinin növbəti təxribatına layiqincə cavab verdi. Bizim tarixim da ön xətdə gedən döyüş əməliyyatlarına qatıldı. Bütün tapşırıqları həvəslə yerinə yetirirdik. Bəlkə də illərdir doğma yurdumuzdan ayrı düşmək bizi bu qədər tez irəli atılmağa sövq edirdi. Qarabağı azad görməyə çalışırdıq. Çalışdıq... Bacardıq... Lakin Qarabağı azad edib, azad görməyən şəhidlərimiz və hər qarış torpağında izi olan qazilərimiz də oldu. Allahdan şəhidlərimizə rəhmət, qazilərimizə şəfa diləyirəm".



Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları Rəşad Mehdiyev, Elşad Əsgərov, Elməddin Bayramov və Cəlil Şərifov da komandirləri ilə həmfikir olduqlarını bildirdilər: "Köçkünlük həyatı yaşayan insanların həsrətinə son qoyduq. Bundan sonra da mənfur düşmənin torpaqlarımıza əl uzada bilməməsi üçün silah və texnikanı həvəslə öyrənməli, döyüş tapşırıqlarını dəqiq yerinə yetirməliyik".

Öyrəndik ki, təlimdə icra olunan çalışmalarda əsas məqsəd komandir heyətinin, sürücü-mexaniklərin döyüş texnikasını idarəetmə qabiliyyətlərini, eləcə də tuşlayıcı-operatorların texnikadan hərəkətdə və dayanaraq atəş açma bacarıqlarını təkmilləşdirməklə bərabər, tank bölmələrinin döyüş hazırlığının daha da yüksəldilməsidir.

İllik döyüş hazırlığı planına əsasən keçirilən dərs və məşğələlər hərbi qulluqçuların döyüş hazırlığı ilə bərabər, şəxsi heyətin mənəvi-psixoloji, fiziki və atəş hazırlığının yüksəldilməsinə yönəlir. Bu səbəbdən Beynəlxalq yarışlarda da Azərbaycan Ordusu özünü müsbət cəhətdən göstərməyi bacarır. Misal olaraq, "Beynəlxalq ordu oyunları-2021" çərçivəsində keçirilən "Tank biatlonu" müsabiqəsində Azərbaycan tankçılarının yarışın final mərhələsinə keçməsini göstərmək olar. Yüksək nəticə nümayiş etdirən tankçılarımız müsabiqəni 4-cü yerdə başa vurublar. Bu bir daha sübut edir ki, tankçılarımızın da, digər qoşun növlərinin də döyüş hazırlığı yüksəkdir və Azərbaycan Ordusu dünyanın ən güclü orduları siyahısında layiqli yerini tutur. Hamısı bilir ki, qüdrətin başlanğıcı döyüş hazırlığıdır.

**Leytenant**
**İbrahim MƏMMƏDBƏYOV**
**"Azərbaycan Ordusu"**

# "Azərbaycanın müasir tarixinin bütöv bir dövrü ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır"





*Müasir Azərbaycan dövlətinin quruluş və inkişaf dövrü, heç şübhəsiz, xalqımızın ümummilli lideri, görkəmli sərkərdə Heydər Əliyevin adı ilə bağlıdır. Ölkəmizə rəhbərlik etdiyi dövrlərdə Heydər Əliyev Azərbaycanın hərtərəfli inkişafına, qüdrətlənməsinə öz töhfəsini vermiş, təkcə bu gün üçün deyil, qarşıdakı onilliklər, yüzilliklər üçün dövlətimizin inkişaf strategiyasını müəyyən etmişdir.*

Ulu öndər Heydər Əliyev zəngin və çoxşaxəli siyasi fəaliyyəti ilə xalqımızın yaddaşında əbədilik qazanmışdır. Böyük şəxsiyyətin Azərbaycan xalqı qarşısındakı tarixi xidmətlərindən biri də müasir Azərbaycan Ordusunun memarı olmasıdır. Müstəqilliyimizin və ərazi bütövlüyümüzün etibarlı



qarantı olan bugünkü güclü, rəşadətli Azərbaycan Ordusu xalqımızın ümummilli lideri Heydər Əliyevin şah əsərlərindən biridir.

Ulu öndər Heydər Əliyevin anadan olmasından 99 il ötür. Ümummilli Liderin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləri, ölkəmizin müstəqilliyinin qorunub möhkəmləndirilməsində, demokratik hüquqi dövlətin qurulmasında və onun hərtərəfli inkişafında misilsiz fəaliyyəti xalqımız tərəfindən daim xatırlanır və onun əziz xatirəsi böyük məhəbbətlə, ehtiramla yad edilir.

Əbədiyaşar Komandanın anadan olmasının 99-cu ildönümü münasibətilə keçirilən növbəti tədbir Müdafiə Nazirliyinin Hərbi Polis İdarəsində baş tutdu. Əvvəlcə hərbi hissənin ərazisində yerləşən Ümummilli Liderin büstü önünə tər güllər qoyuldu. Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçən Vətən övladlarının xatirəsini bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Sonra konfrans zalında davam edən tədbirdə polkovnik Zahir Quliyev çıxış edərək Azərbaycan xalqının taleyində və tarixində silinməz izlər qoymuş Heydər Əliyevi bir daha dərin ehtiramla xatırladıqlarını bildirdi. "Azərbaycanın müasir tarixinin bütöv bir dövrü ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Dünya şöhrətli siyasətçi, görkəmli dövlət xadimi, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev çox zəngin və mənalı ömür yaşayıb. Hər ayı, hər günü bir dastan olan bu böyük ömrün nişanələri xatirələrimizdə daim yaşayır. Hər il mayın 10-da Ulu Öndərlə bağlı xatirələr bir daha dilə gəlir, müxtəlif vaxtlarda çəkilmiş fotoşəkilləri, sənədli filmləri bizi Heydər Əliyevli günlərə qaytarır. Ulu Öndər bu gün cismən aramızda olmasa da, onun ruhu çox şaddır. Dahi Liderin arzuları reallaşdı, Azərbaycan öz tarixi torpaqlarına qovuşdu. Müzəffər Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin rəhbərliyi altında rəşadətli ordumuz 2020-ci ilin 27 sentyabrında başlayan əks-hücum əməliyyatlarını tarixi qələbəmizlə başa vurdu. 44 gün davam edən Vətən müharibəsində Ulu Öndərin banisi olduğu müasir ordumuz Ermənistanın 30 ilə yaxın qurduğu istehkamları darmadağın edərək, işğal altındakı torpaqlarımızı azad etdi. Noyabrın 8-də Azərbaycan xalqı uzun illər yaşamadığı sevinci və fəxarət hissini yaşadı. 28 ildən sonra Şuşa şəhəri işğaldan azad edildi. Ali Baş Komandan İlham Əliyev "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" - deyən Ümummilli Liderin vəsiyyətini həyata keçirdi, xalqımıza Böyük Qələbə sevincini yaşatdı. Vətən müharibəsində dərindən düşünülmüş hərbi strategiya, döyüş əməliyyatlarının məharətlə həyata keçirilməsi Azərbaycanın müstəqil dövlət və ordu quruculuğunu tam təsdiq elədi. Bu Qələbə Azərbaycanın beynəlxalq mövqelərinin daha da möhkəmlənməsində, nüfuzunun yüksəlməsində böyük rol oynadı. Prezident İlham Əliyevin 44 gün ərzində yerli və xarici media vasitəsilə haqq səsimizi dünyaya çatdırması, xalqa müraciətlərində səsləndirdiyi fikirlər hər bir azərbaycanlıda böyük sevinc və qürur hissi yaratdı. Bu tarixi qələbəni, zəfər bayramını bizə yaşadan ulu öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı ölkə Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin qətiyyəti, siyasi iradəsi oldu".



Tədbirin gedişində polkovnik Mirhəmid Nağıyev çıxış edərək Ulu Öndərin ordu quruculuğundakı misilsiz xidmətlərindən danışdı. Heydər Əliyevin hələ 1969-cu ildə respublika rəhbərliyinə gəlişindən sonra müstəsna xidmətləri sayəsində ölkəmizdə hərbi kadrların hazırlanması prosesinin geniş vüsət aldığını vurğuladı. "Ümummilli Liderin təşəbbüsü ilə Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Məktəb yaradıldı. O zaman bu qərarı vermək böyük cəsarət tələb edirdi. Azərbaycanda milli hərbi kadr hazırlığı üçün baza rolunu oynayacaq məktəbin yaradılması çox cəsarətli addım idi. Həmin dövrdə bir-birinin ardınca Moskvadan Bakıya göndərilən komissiyalar Azərbaycanda belə bir hərbi məktəbə ehtiyac olmadığını əsaslandırmağa çalışsalar da, Ümummilli Liderin mahir diplomatiyası və uzaqgörən siyasəti bu cəhdlərin qarşısını almış, həmin məktəbin fəaliyyəti Azərbaycanda hərb sənətinə marağın güclənməsinə, azərbaycanlı zabit kadrların hazırlanmasına gətirib çıxarmışdır. Təsadüfi deyil ki, Cəmşid Naxçıvanski adına Hərbi Məktəb Azərbaycan müstəqilliyini bərpa edəndən sonra ordu quruculuğunda əsas bazalardan birinə çevrildi. Ulu öndər Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə qayıtdıqdan sonra Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi hərbi sahədə də dirçəlişə nail ola bildi. O, yerli özünümüdafiə və könüllü batalyonlar adı altında fəaliyyət göstərən silahlı birləşmələri ləğv edərək, vahid komandanlıq altında nizami ordu yaratdı. Ön xəttə səfər edərək, döyüşçülərlə səngərdə görüşməsi və onları döyüşə ruhlandırması öz real bəhrəsini verdi. Çox keçmədi ki, 1994-cü ilin əvvəllərində Füzuli rayonunun Horadiz qəsəbəsi istiqamətində düşmənə qarşı uğurlu hərbi əməliyyat həyata keçirildi. 1994-cü il mayın 12-də elan olunan atəşkəsdən sonra Azərbaycanda nizamlı, müasir səviyyəli ordunun qurulması prosesinə böyük inamla start verildi. Ölkədə nizami ordu quruculuğu formalaşdırılmağa başlandı. Orduda xidmət edən gənclərə yüksək diqqət və qayğı göstərən, onların xidmətini hər zaman yüksək qiymətləndirən Əbədiyaşar Komandan çıxışlarının birində hərbçilərimizə olan rəğbətini belə ifadə etmişdi: "Bütün peşələr şərəflidir, lakin hərb peşəsi bütün peşələrdən şərəflidir. Hərbçi olmaq sizlərin də ən birinci seçiminiz olmalıdır. Çünki bu yol mərdlik, cəsurluq, vətənpərvərlik yoludur. Bu yol qəhrəmanlıq yoludur".

Ümummilli Liderin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş etdirildikdən sonra "Vətənə, xalqa dövlətə xidmət ömrümüzün mənasıdır" devizi altında ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə keçirilmiş bilik yarışmasının qaliblərı və xidmətdə fərqlənən hərbi qulluqçular mükafatlandırıldılar.

Anım tədbirinin ikinci hissəsində Müdafiə Nazirliyi Hərbi Polis İdarəsinin təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin zəngin irsi ilə yaxından tanış olmaq məqsədilə şəxsi heyətin və onların ailə üzvlərinin Heydər Əliyev Mərkəzinə ekskursiyası təşkil olundu.

Əvvəlcə ulu öndər Heydər Əliyevin adını daşıyan Mərkəzlə tanış oldular. Üç mərtəbədən ibarət mərkəzdə ən son texnoloji yeniliklərdən istifadə edilməklə dahi şəxsiyyət Heydər Əliyevin həyat və fəaliyyətinə dair ətraflı məlumat interaktiv formada təqdim edilir. Mərkəzin əməkdaşları iştirakçılara məlumat verərək bildirdilər ki, orjinal dizaynı və burada tətbiq edilən yeni texnologiyalarla fərqlənən Mərkəz öz binasının modern üslubu ilə həmahəng təşkil edir.

Xatırladaq ki, Mərkəz məşhur memar Zaha Hadidin layihəsi əsasında inşa edilərək 2012-ci ilin mayında istifadəyə verilmiş, 2013-cü il mayın 10-da isə Heydər Əliyev Mərkəzinin rəsmi açılışı olmuşdur. Artıq müasir Bakının simvollarından birinə çevrilən Mərkəzdə ümummilli lider Heydər Əliyevə aid maraqlı faktlar və fəaliyyətinin bütün dövrlərini əhatə edən video və foto arxiv sənədləri, eləcə də müxtəlif unikal eksponatlar nümayiş etdirilir. Muzeydə ən son texnoloji



yeniliklərdən istifadə edilməklə məlumatlar ziyarətçilərə interaktiv formada təqdim edilir. Burada Ümummilli Liderin ailəsinin ötən əsrin 30-cu illərində çəkdirdiyi fotoşəkillər, ulu öndər Heydər Əliyevin SSRİ Dövlət Təhlükəsizlik Komitəsində çalışdığı zaman istifadə etdiyi zabit və general geyimləri, müxtəlif dövrlərdə istifadə etdiyi dörd xidməti avtomobil, layiq görüldüyü orden və medallar, Sovetlər zamanı və müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə müxtəlif dünya ölkələrinin dövlət və hökumət başçıları ilə görüşlərini əks etdirən fotolarla tanışlıq ekskursiya iştirakçıları tərəfindən böyük maraqla qarşılandı.

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV,**
**leytenant**
**İbrahim MƏMMƏDBƏYOV**
**"Azərbaycan Ordusu"**

# Milli Məclisin deputatlarının bir qrupu Cəmşid Naxçıvanski adına Hərbi Liseyi ziyarət edib



*Xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə Milli Məclisin deputatlarının bir qrupu Ulu Öndərin təşəbbüsü və rəhbərliyi ilə yaradılan Cəmşid Naxçıvanski adına Hərbi Liseyi ziyarət edib.*

AZƏRTAC xəbər verir ki, böyük səmimiyyətlə qarşılanan deputatlara analoqu olmayan bu xüsusi təyinatlı təhsil müəssisəsinin yarandığı 50 il ərzində respublikamızda milli peşəkar hərbçi kadrların hazırlanması sahəsində müstəsna xidmətlər göstərdiyi, cəmiyyətdə hərbi peşənin nüfuzunun yüksəldilməsində və taleyini hərb sənətinə həsr edən gənclərin sayının davamlı artmasında əhəmiyyətli rol oynadığı barədə məlumat verilib. Bildirilib ki, Hərbi Liseyin yetirmələri müstəqil Azərbaycanın Silahlı Qüvvələrinin formalaşdırılması və möhkəmləndirilməsi işinə dəyərli töhfələr verib, ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda döyüşlərdə həmişə ön cəbhədə yer alıblar. Onlar böyük rəşadət nümayiş etdirərək "Vətən Müharibəsi Qəhrəmanı" və "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adlarına layiq görülüb, orden və medallarla təltif olunublar. Hərbi Liseyin məzunları Vətən qarşısında vəzifə borclarını bu gün də şərəflə yerinə yetirirlər. Hazırda Silahlı Qüvvələrimizdəki zabitlərin əksəriyyəti məhz Cəmşid Naxçıvanski adına Hərbi Liseyin məzunlarıdırlar.

Milli Məclisin deputatları və hərbi qulluqçular Hərbi Liseydə fəaliyyət göstərən Heydər Əliyev Muzeyini ziyarət edib, Ulu Öndərimizin abidəsi önünə qızılgül çələngi qoyub, güllər düzərək dahi rəhbərin xatirəsini ehtiramla yad ediblər. Heydər Əliyev Muzeyinin geniş ekspozisiyasında nümayiş etdirilən hər bir foto, sənəd, xatirə əşyası böyük maraq oyadıb.

Qonaqlar Heydər Əliyev Muzeyinin xatirə kitabına ürək sözlərini yazıb, liseyin müəllim-zabit və kursant heyətinə yeni-yeni uğurlar arzulayıblar. Deputatlar Azərbaycan müstəqilliyi uğrunda fədakarlıqlar göstərən böyük sərkərdə Cəmşid Naxçıvanskinin abidə-kompleksini də ziyarət ediblər.

Abidə qarşısında deputatların diqqətinə çatdırılıb ki, adını və xidmətlərini həmişə minnətdarlıq hissi ilə xatırladığımız ulu öndər Heydər Əliyev 1970-ci ildən başlayaraq, Cəmşid Naxçıvanskinin adının əbədiləşdirilməsi üçün ardıcıl addımlar atıb. "Qırmızı terror"un qurbanı olan Cəmşid Naxçıvanskinin adını çəkmək, xatirəsinin əbədiləşdirilməsi üçün təşəbbüs irəli sürmək o dövrdə böyük risk tələb edirdi. Ancaq totalitar rejimin sərt qadağalarına baxmayaraq, Ulu Öndərimiz bu cəsarətli addımı atdı və Azərbaycanın keçmiş ittifaqdan ayrılması üçün gizli hərbi-siyasi təşkilatlarda fəaliyyət göstərən, Əlahiddə Azərbaycan Korpusunun sıralarında öz süvari alayı ilə birlikdə Gəncəyə doğru irəliləyən Şaumyanın azğınlaşmış qoşunlarının qarşısını Göyçay yaxınlığında alan, Bakının işğaldan azad edilməsində, Xankəndi və Şuşa şəhərində erməni-daşnak dəstələrinə qarşı döyüşlərdə mərdliklə vuruşan və ilk milli diviziyamızın komandiri Cəmşid Naxçıvanskinin adını əbədiləşdirdi. Bakıda yaşadığı binaya xatirə lövhəsi vuruldu, Naxçıvan şəhərində ev-muzeyi yaradıldı, Hərbi Liseyə onun adı verildi və doğum günləri təntənə ilə qeyd olundu.

Lisey kompleksi ilə tanışlıq zamanı deputatların nəzərinə çatdırılıb ki, Ulu Öndərimiz hələ neçə illər öncə demişdir: "Mən Cəmşid Naxçıvanski adına məktəbi yaradarkən həsrətində olduğum arzuma çatmışam, ona görə də özümü çox xoşbəxt hesab edirəm. Sizə səmimi deyirəm, Naxçıvanski adına Hərbi Lisey mənim üçün bir övladdır. Ona öz övladım kimi baxıram və nə qədər yaşayıramsa, ona, bax, bu cür baxacağam".

Xalqımızın haqlı olaraq "Heydər Əliyev Məktəbi" adlandırdığı bu təhsil ocağı bu gün də Ulu Öndərimizin özü qədər inandığı və gələcəyinə böyük ümidlər bəslədiyi Prezident İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunub.



Qeyd edilib ki, 11 hektar ərazini əhatə edən Hərbi Liseydə 2018-ci ilin fevralında Müzəffər Ali Baş Komandanımızın tapşırığı ilə tikinti, təmir və yenidənqurma işlərinə başlanılıb. Dövlətimizin başçısı 2019-cu il iyunun 26-da məktəbi ziyarət edərək görülən işləri yüksək qiymətləndirib.



Hərbi Liseyin ərazisində kursantların yaşayış və məişət şəraitinin yaxşılaşdırılması məqsədilə dördmərtəbəli yataqxana korpusu yaradılıb. Yeni tikilən binada konfrans zalı, ideoloji, məişət və digər otaqlar zəruri avadanlıqla təchiz edilib. Yataqxanada kursantların qalması, istirahəti və asudə vaxtlarının səmərəli təşkili üçün hər cür şərait var. Üçmərtəbəli yataqxana korpusu da əsaslı təmir olunub.



Tədris korpusunda kursantların bilik və hazırlıqlarının artırılması üçün hər cür şərait yaradılıb.

Yenidənqurma işləri zamanı liseyin təntənəli mərasimlər, sıra təlimləri, düzülüşlər, şəxsi heyətin sıra baxışı, döyüş və fiziki hazırlıq, eləcə də digər tədbirlərin keçirilməsi üçün sahəsi 3000 kvadratmetr olan sıra meydanı salınıb, tribuna inşa edilib, 350 yerlik klub əsaslı təmir olunub. Bütün avadanlıqlarla təchiz olunan ikimərtəbəli yeməkxana binası da əsaslı təmir olunub. Burada eyni vaxtda 600 kursant nahar edə bilər. Ərazidə geniş yaşıllaşdırma işləri aparılıb, abadlıq tədbirləri görülüb. Qərargahın qarşısında Cəmşid Naxçıvanskinin büstü ucaldılıb, xatirə kompleksi yaradılıb.

Bələdçi vurğulayıb ki, liseyin ərazisində tibb məntəqəsi də inşa olunub. İkimərtəbəli 32 çarpayılıq tibb məntəqəsində şəxsi heyətə yüksək səviyyədə ixtisaslı tibbi yardım göstərilir.

Qapalı idman kompleksində kursantların fiziki hazırlığının daha da artırılması üçün bütün avadanlıq və qurğular yenilənib.

Deputatlar və qonaqlar Hərbi Liseyin ərazisi ilə tanış olduqdan sonra klubda gələcəyin zabitləri ilə görüşüblər.

Ulu öndər Heydər Əliyevin və respublikamızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni ifa olunub.

Cəmşid Naxçıvanski adına Hərbi Lisey haqqında bir neçə kitabın və 25 ildir ki, kursantların böyük həvəslə ifa etdikləri "Naxçıvanskilər marşı"nın sözlərinin müəllifi (musiqisi Əməkdar İncəsənət xadimi Hikmət Mirməmmədlinindir) polkovnik Abdulla Qurbani qonaqları və şəxsi heyəti salamlayaraq hər bir deputat haqqında qısa məlumat verib və onları alqışlar altında səhnəyə dəvət edib.

Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsi İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi vəzifəsini icra edən general-mayor Bəkir Orucov əlamətdar gündə Ulu Öndərin xalqımıza bəxş etdiyi möhtəşəm abidələrdən olan Cəmşid Naxçıvanski adına Hərbi Liseyi ziyarətə gələn deputatlara Müdafiə Nazirliyinin rəhbərliyi adından minnətdarlıq edib və bu görüşün kursantların yaddaşından uzun müddət silinməyəcəyinə əminliyini bildirib.

Milli Məclisin deputatları Fatma Yıldırım, Anar Məmmədov, Afət Həsənova, Vüqar Bayramov, Mahir Abbaszadə, Arzu Nağıyev, Ramin Məmmədov, Əminə Ağayeva, Aqil Məmmədov çıxış edərək unudulmaz dahi rəhbərin ad günündə Hərbi Liseydə olmaqdan böyük qürur duyduqlarını və burada gələcək zabitlərin yetişdirilməsi üçün hər cür şəraitin yaradılmasının şahidi olmalarından məmnun qaldıqlarını vurğulayıblar.

Şəxsi heyətin böyük coşqu ilə ifa etdiyi "Naxçıvanskilər marşı" deputatların böyük marağına səbəb olub.

Qonaqlara Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbaninin Hərbi Liseyin 50 illiyinə həsr etdiyi "Böyük gələcəyə baxış" adlı yubiley nəşri hədiyyə edilib.

Milli Məclisin deputatları "Heydər Əliyev Məktəbi"ndən - Cəmşid Naxçıvanski adına Hərbi Liseydən xoş təəssüratlarla ayrılıblar.

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

**(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)**

## Mövzu: İnformasiya təhlükəsizliyi

**Suallar:**

**1. İnformasiya haqqında əsas anlayışlar.**

**2. Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi siyasəti.**

**3. İnformasiya təhlükəsizliyi və ona qarşı yönəlmiş təhdidlər.**

**4. Hərbi qulluqçu və informasiya təhlükəsizliyi.**

### İnformasiya haqqında əsas anlayışlar

İnformasiya istehsal faktoru olaraq cəmiyyət üçün imtina edilməz və çox vacib amildir. İnformasiya - ətraf mühit haqqında istənilən məlumatdır. O, təkcə texnologiyalarla emal olunan anlayış olaraq deyil, hər hansı bir təşkilatın tərkibində müxtəlif quruluşlarda mövcud ola bilər. Mütəxəssislərin araşdırmalarına görə informasiya aşağıdakı mühitlərdə mövcud ola bilər:

- Fiziki mühit: kağız, taxta, faks, qutular, şkaflar və s.;
- Elektron mühit: kompüterlər, mobil qurğular, elektron poçt, yaddaş qurğuları (USB flash, CD-DVD, disket və s.) və s.;
- Sosial mühit: telefon danışıqları, söhbətlər, yemək fasilələri, nəqliyyat vasitələri və s. sosial fəaliyyət vasitələri;
- Təqdimat platformaları: internet saytları, broşüralar, reklamlar, təqdimatlar, təlimlər, video və ya digər vizual mühitlər.

İnformasiyanın ən vacib amillərdən birinə çevrildiyi vaxtda onun təhlükəsizliyi də olduqca vacibdir.

İnformasiya təhlükəsizliyi dedikdə informasiyanın və informasiya mühitinin təsadüfi və ya düşünülmüş, təbii və ya süni xarakterə malik təsirlərdən müdafiə vəziyyəti başa düşülür. Belə təsirlər informasiyaya və ya informasiya obyektlərinə, həmçinin informasiya istifadəçisinə və sahibinə yolverilməz ziyanlar vura bilir.

İnformasiyanın mühafizəsi - informasiya təhlükəsizliyinin təmin olunması üçün həyata keçirilən kompleks tədbirlərdir. İndiki zamanda informasiyanın təhlükəsizliyi ən çox yayılmış üç əsas xüsusiyyətə əsaslanır: konfidensiallıq, tamlıq və əlçatanlıq.

İnformasiyanın konfidensiallığı həddindən artıq məhdud dairədə olan insanlar ilə tanış olmağın mümkünlüyünü ifadə edir. Bu insanlar informasiya sahibləridirlər. Əgər informasiyanı bu şəxslərdən başqa icazəsi olmayan digər şəxslər də istifadə edə bilirlərsə, onda informasiyanın konfidensiallığı itmiş olur. Bəzi informasiya növləri üçün konfidensiallıq əsas atribut sayılır (məsələn, hərbi hissəyə dair məlumatlar, strateji tədqiqatlarla bağlı olan məlumatlar, tibbi qeydlər, sığorta ilə bağlı yazılar və s.). Bəzi hallarda konkret şəxslər barədə olan məlumatlarda da konfidensiallığı saxlamaq lazımdır (məsələn, hərbi qulluqçu haqqında informasiyanı, tibbi müəssisələrdə pasientlərin vəziyyəti haqqında məlumatları və s).

### Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi siyasəti

Müasir dövrdə informasiya axınının dünyanın hər yerində sürətləndiyi bir vaxtda hətta informasiyanı daha çox yaradan ölkələr belə yaratdıqlarının "əsirinə" çevrilirlər. Bu, artıq dünyanı bürüyən ciddi bir təhlükədir. İnsanlar hər an informasiyaların təsirində, hətta təhdidindədirlər. İnformasiya insanların əhvalına sürətlə təsir edir, onları yönləndirir.

İnformasiya texnologiyasının inkişafı ilə əlaqədar daha asan və tez əldə edilən informasiya dövlətin və cəmiyyətin özünü ifadə etmək baxımından ideal vasitə hesab edilir. Bu səbəbdən son zamanlar iqtisadiyyatda, siyasətdə və hərbdə "informasiya əməliyyatı" və "informasiya müharibəsi" terminləri geniş istifadə edilir. Dünyada informasiya müharibəsi texnologiyalarının inkişafı və dövlətlər arasında baş verən hərbi və siyasi qarşıdurmalar belə söyləməyə əsas verir ki, yaxın gələcəkdə qarşı tərəf üzərində üstünlük informasiyanın ələ keçirilməsi, onlara tez reaksiya verilməsi, real vaxt çərçivəsində qarşı tərəfin informasiya mənbələrinin məhv edilməsi ilə əldə olunacaq. Bu gün cəmiyyətdə milli informasiya resurslarının mühafizəsi məsələsi çox aktualdır. İnkişaf etmiş dövlətlər tərəfindən informasiya silahının tətbiqi və qlobal informasiya infrastrukturunun yaradılması bu ölkələrin dünyada lider ölkə olmaq ideyasından irəli gəlir. İnternet açıq informasiya şəbəkəsinin genişlənməsi, kompüter cinayətkarlığının artması, siyasi və iqtisadi məqsədlərə çatmaq üçün yüksək səviyyədə informasiya hücumu təhlükələrinin çoxalması informasiya müharibəsi və informasiya təhlükəsizliyi kimi məsələlərin aktuallığına səbəb olub.

Müasir dünya geosiyasətində informasiya və təbliğatın beynəlxalq ictimai rəyə təsir imkanlarından geniş danışılır. Hazırda bir ölkənin başqa dövlətin ərazisində mövcud informasiya sistemlərini nəzarət altına alması və yaxud idarə etməsi yalnız onun hərbi və milli təhlükəsizlik məsələlərinə təsirlə yekunlaşmır. Bu, həm də yerli ictimai rəyin kənar təsirlərə məruz qalmasına və idarə edilməsinə, ölkənin idarəçilik sisteminin pozulmasına və iflic olmasına səbəb ola bilər. Mütəxəssislərin fikrincə, xarici texnologiyanın mövcud gücü ilə hazırda ayrı-ayrı ölkələrin daxili idarəçilik sistemləri arasındakı rabitə əlaqələrini nəinki kəsmək və pozmaq, hətta bu sistemə girərək, dezinformasiya yaymaq yolu ilə onların fəaliyyətini yönəltmək və sarsıtmaq mümkündür. Bu da həmin ölkələrin daxili sabitliyini, idarəetmə orqanlarının ahəngdar fəaliyyətini pozur ki, nəticədə milli təhlükəsizliyə xarici müdaxilə üçün əlverişli şərait yaranır.

Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi siyasəti dövlət, ictimai və fərdi informasiya ehtiyatlarının qorunmasına, habelə informasiya sahəsində milli maraqların müdafiəsinə yönəlmiş tədbirlər kompleksinin həyata keçirilməsindən ibarətdir.

İnformasiya təhlükəsizliyi siyasətinə toxunan Azərbaycan Respublikası Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev vurğulamışdır ki, "Hazırda bizə qarşı dünyada sistemli informasiya müharibəsi aparan qüvvələr mövcuddur. Elə ölkələr var ki, orada nəinki hər həftə, hər gün Azərbaycanla bağlı böhtan xarakterli yazılar dərc edirlər. Təbii ki, bu əlaqələndirilmiş bir antiazərbaycan siyasətidir. Bu işdə, ilk növbədə, erməni lobbisinin fəallığını qeyd etmək lazımdır. Onlar mütəmadi olaraq Azərbaycanın milli-mədəni dəyərlərini, real inkişafını və həqiqətlərini inkar edərək, onu geridə qalmış, antidemokratik, antixristian ölkə kimi dünyaya təqdim etməyə çalışır".

Azərbaycanın informasiya təhlükəsizliyi mühitinin mövcud vəziyyətinin təhlili göstərir ki, şəxsiyyət, dövlət və cəmiyyətin həyati əhəmiyyətli bütün maraqlarının daha yüksək səviyyədə qorunması hazırda həm də ölkənin informasiya təhlükəsizliyi siyasətinin əsas məqsədi kimi çıxış etməli, onun dinamik inkişaf səviyyəsinin tələblərinə cavab verməlidir.

### İnformasiya təhlükəsizliyi və ona qarşı yönəlmiş təhdidlər

İnformasiya təhlükəsizliyinin ən zəif nöqtəsi insan faktorudur və ona qarşı yönəlmiş hücumların geniş yayılmasına Azərbaycanda çox təsadüf edilir. Bu, əsas insanlarla qarşılıqlı əlaqədə olaraq saxta profillərdən (başqa adla açılmış və ya hər hansı bir saxta şirkət, kampaniya və s.), virtual dostluq və tanışlıqdan istifadə etməklə aldatmaqdır. Əsas məqsəd isə bu yollarla etibar qazanmış mənbədən sui-istifadə etməklə məlumat yığmaqdır.

Bu gün texnologiya həddən artıq inkişaf etdiyinə görə məlumat toplamaq istəyən qüvvələr yeni üsullara əl atır və onlar bu yolda uğurlu nəticələr əldə edirlər. Bu üsullara kompüter (mobil) oyunlarını misal gətirsək yanılmarıq. Belə ki, bəzi aparıcı dövlətlərin kəşfiyyat strukturları fəaliyyət taktikalarını dəyişmişlər. Onlar öz agentlərinə trilyonlarla pul xərcləmək istəmirlər. Əvəzində isə Yer kürəsinin hər bir insanı onların casusu ola bilər. Bu iş həm könüllü, həm də pulsuzdur.

Məsələn, son zamanlar "Pokemon Go" virtual oyunu xeyli populyarlaşmışdır. Azərbaycanda da pokemon həvəskarları günü-gündən artır. Artıq "Facebook"da "Pokemon Go Azerbaijan" səhifəsi də yaradılıb və minlərlə istifadəçi tərəfindən bəyənilib. Məlumatlara görə, bu oyun ABŞ kəşfiyyatının yeni layihəsidir. Layihənin mahiyyəti ondan ibarətdir ki, oyun aludəçiləri xarici kəşfiyyat orqanını maraqlandıran obyektlərə yönləndirilir və çəkilən fotolar kəşfiyyat qərargahına daxil olur. Oyun zamanı istifadəçiyə tapşırıq verilir ki, müəyyən yerdə pokemon var və onu tutmaq lazımdır. Oyunçular işarə verilən yerə yönəlir və lazımi yerin fotosunu çəkirlər. Toplanan informasiyalar avtomatik olaraq kəşfiyyat bazasına daxil olur. Beləliklə, insanlar könüllü şəkildə lazımi yerlərin, obyektlərin, binaların fotolarını çəkir və xarici kəşfiyyata casusluq edirlər.

Həmçinin xarici kəşfiyyat tərəfindən maliyyə sərf etmədən məlumat toplamasının digər yolları da mövcuddur. Məsələn:

- "Touch pad" - Telefonun, yaxud kompüterin barmaq izi ilə açılması. Bu, insanların öz barmaq izlərini könüllü şəkildə xarici kəşfiyyata ötürməsi deməkdir.
- "Geolokasiya" - İnsanlar sosial şəbəkələrdə hazırda harada olduqlarını göstərirlər. Bu, onları rahat şəkildə izləmək imkanı qazandırır.
- "Selfie" - Populyarlığı ilə xəstəliyə çevrilən selfi planetin bütün insanlarının öz fotolarını könüllü şəkildə xarici kəşfiyyat orqanının bazasına göndərməsinə şərait yaradır. Artıq "dərin güclər" dünyanın ən ucqar yerində yaşayan insanı da üzdən tanıyır. Onlar buna selfi sayəsində nail olublar. Maraqlı məqamlardan biri də odur ki, xarici kəşfiyyatın məlumat topladığı bu cür vasitələr, yaxud oyunlar qısa zaman ərzində bütün dünyada məşhurlaşır. Hesab etmək olar ki, bu vasitələrə populyarlıq qazandırmağın da arxasında müəyyən planlar vardır. Yoxsa selfi kimi adi bir foto çəkilişin xəstəliyə çevrilməsinə nə səbəb ola bilərdi?

### Hərbi qulluqçu və informasiya təhlükəsizliyi

İnformasiya təhlükəsizliyi hər sahədə olduğu kimi, hərbi sahədə də öyrənilməli və bütün şəxsi heyətin məlumatlandırılması təmin olunmalıdır. Əks halda təhdidlərin yaranması qaçılmaz olacaqdır. Hərbi hissələrdə informasiya təhlükəsizliyi qaydalarına riayət edilməlidir. Müasir texnologiya bir çox üstünlüklər təqdim etməklə yanaşı, müəyyən problemlər də yaradır. Məsələn, smartfon tipli mobil telefonlardan istifadə etməklə hərbi qulluqçular tərəfindən xidmət etdikləri hərbi hissələrin və ya hərbi texnikanın foto və video görüntülərin yayılması informasiya təhlükəsizliyi baxımından çox təhlükəli haldır. Xidmət yerindən yayılan foto və videolar qarşı tərəfə kifayət qədər informasiya verə bilər və bu kimi hallar yolverilməzdir.

Döyüş əməliyyatları zamanı və sonra bu hallar tez-tez baş verir. İnformasiya təhlükəsizliyi qaydaları hərbi qulluqçular tərəfindən dəfələrlə pozulur. Misal üçün "Filan istiqamətdə yer azad elədik", "Bu şərəfsiz erməninin yeməyidir", "Bu bizim yeni qazdığımız səngərdir" və s. ifadələr başlığı altında məlumatlar paylaşılır ki, bu üsulla da cəbhədəki vəziyyət haqqında bütün lazımi informasiyanı düşmən əldə edə bilir. Eyni zamanda, erməni tərəfi sosial şəbəkələrdə saxta profillər yaradaraq cəbhə zonasında bizim hərbi qulluqçular tərəfindən çəkilən şəkillərin, video çarxların şərh bölməsinə aldadıcı suallar, şərhlər yazaraq məlumat toplamağa cəhd edirlər və bəzən bu haqda xəbərdar olmayan hərbçilər onlara öz istək və təəssüratlarını açıq şəkildə çatdırırlar. Beləliklə, erməni işğalçıları tərəfindən məlumat toplamaq üçün hər hansı bir kəşfiyyat xarakterli əməliyyat keçirilməsinə ehtiyac qalmır və onlar məlumatın əksər hissəsini açıq mənbələrdən toplayırlar.

Bu kimi təhlükələrdən qorunmaq və gələcəkdə qarşısının alınması üçün müvafiq qaydalar mövcuddur və hərbi qulluqçulardan (habelə, hərbi hissələrdə çalışan mülki şəxslərdən) bu qaydalara riayət edilməsi tələb olunur. Azərbaycan Ordusunda informasiya təhlükəsizliyi tədbirlərinin təşkili üzrə əsas qanunlar, əmr və sərəncamlar aşağıda göstərilmişdir:

1. Azərbaycan Respublikasının "Dövlət sirri haqqında" qanunu.
2. "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ermənistan Respublikası Silahlı Qüvvələri ilə təmas xəttində bəzi təhlükəsizlik tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.
3. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Maddə: 274, 276, 284, 285.
4. Azərbaycan Respublikası Müdafiə nazirinin və Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müvafiq əmr, sərəncam və göstərişləri.

Hərbi qulluqçu bilməlidir ki, hərbi hissə ilə bağlı məlumatların başqa şəxsin və ya şəxslərin əlinə keçməsi informasiyanın konfidensiallığının pozulması deməkdir. Bu səbəbdən, sosial mühəndislik hücumlarından qorunmağın ən yaxşı yolu təhlükəsizlik qaydalarına riayət etməkdir. Məsələn:

- "Odnoklasniki", "İnstagram", "Whatsapp", "Skype" və s. sosial şəbəkələrində, habelə e-poçtunuzda hərbi xidmət fəaliyyətini əks etdirən foto və ya videoların nümayişi, xidməti məxfi məlumatların ötürülməsi və bu kimi sair fəaliyyətlər qadağandır;
- Cəbhə boyu ərazilərdə yayımlanan, mənbəsi naməlum olan və ya xarici ölkələr, xüsusən də Ermənistan tərəfindən, açıq Wi-Fi internet şəbəkələrindən istifadə etmək qadağandır;
- Hərbi hissəyə dair sənədlərin mülki obyektlərdəki kompüter texnikasında hazırlanması və çap edilməsi qadağandır;
- Hərbi hissələrdə şəxsi kompüterlərdə xidməti sənədlərin, habelə məxfi qrifli sənədlərin hazırlanması, saxlanılması və ya çap edilməsi qadağandır;
- Hərbi hissədə smartfon tipli mobil telefonlardan istifadə edilməsi qadağandır və s.

Bu baxımdan, Azərbaycan Ordusunda xidmət edən hər bir hərbi qulluqçu informasiya təhlükəsizliyi qayda-qanunlarına riayət etməli və informasiya təhlükəsizliyinə cavabdeh şəxs kimi bilavasitə özü olduğunu bilməlidir.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# “Milyonların qəlbində yaşayan Lider” mövzusunda elmi-praktik konfrans keçirildi

*“N” hərbi hissəsində ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş tədbir keçirildi.*



Tədbirdə "N" hərbi hissəsinin zabitləri, Kürdəmir rayon İcra Hakimiyyətinin rəhbərliyi, idarə, müəssisə və təşkilatların, eləcə də rayon ictimaiyyətinin nümayəndələri iştirak etdilər. Əvvəlcə ulu öndər Heydər Əliyevin və ölkəmizin suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların ruhu bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi. Rayonun Heydər Əliyev Parkında dahi rəhbərin abidəsi önünə gül dəstələri düzüldü və xatirəsi dərin ehtiramla yad edildi. Daha sonra şəxsi heyət Heydər Əliyev Mərkəzində "Milyonların qəlbində yaşayan lider" mövzusunda elmi-praktik konfransda iştirak etdilər.

Mayor Qorxmaz Mehdiyev çıxış edərək tədbir iştirakçılarının diqqətinə çatdırdı ki, Azərbaycan regionun güclü və qətiyyətli faktoruna çevrilib. “Bütün bunların əsasında iki tarixi şəxsiyyət dayanır - Heydər Əliyev və İlham Əliyev. Ümummilli lider Heydər Əliyev siyasi hakimiyyətdə olduğu dövrlərdə müstəqil Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi, ölkəmizin qüdrətlənməsi və xalqın rifahı naminə daima mübarizə meydanında olaraq Azərbaycana uğurla rəhbərlik edib. Çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində Azərbaycan bu gün regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib".

Daha sonra çıxış edən polkovnik-leytenant Zaur Tağıyev isə vurğuladı ki, ulu öndər Heydər Əliyevin doğma xalqına ən böyük xidmətlərindən biri ölkənin dinamik strateji inkişaf meyarlarını, gələcək planlarını müəyyən etməklə yanaşı, özü qədər inanıbgüvəndiyi, yolunu inamla, uğurla davam etməyi bacaran, görkəmli və qətiyyətli siyasi lider İlham Əliyev kimi davamçı hazırlamasıdır.

Sonra hərbi hissənin zabit və əsgərlərinin Kürdəmir Tarix-Diyarşünaslıq muzeyinə ekskursiyası təşkil edildi. Muzeyin bələdçisi qonaqlara muzeyin yaranması, rayonun tarixi, eləcə də rayon ərazisində tapılan müxtəlif arxeoloji etnoqrafik əşyalar barədə məlumat verdi.

Ekskursiya zamanı iştirakçılar bildirdilər ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan rəşadətli ordumuz hazırda müasir hərbi texnika ilə təchiz edilib, möhkəm nizam-intizama və yüksək döyüş hazırlığına malikdir. 44 günlük Vətən müharibəsində düşməni sarsıdıcı zərbələri ilə darmadağın edən qalib ordumuz müstəqil dövlətimizin ən böyük dayağı, təhlükəsizliyimizin, suverenliyimizin və ərazi bütövlüyümüzün ən sədaqətli təminatçısıdır.

**Hüsniyyə İDRİSOVA**
**"Azərbaycan Ordusu"**

# Vətən müharibəsi şəhidlərinin xatirəsi yad edilib





Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, torpaqlarımızın işğaldan azad olunması uğrunda canlarını fəda edən şəhidlərin ruhlarına ehtiram məqsədilə "Şəhidlər ölməz - Vətən bölünməz!" tədbirlər silsiləsi çərçivəsində növbəti anım mərasimi keçirilib.

Vətən müharibəsi şəhidləri İlkin Süleymanov, Asif Abışov, Asim Cəfərli, Elyaz Qarayev və Murad Musayevin xatirəsinə həsr olunan anım mərasimində onların ailə üzvləri, yaxınları, döyüş yoldaşları, Müdafiə Nazirliyinin və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin, Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edənlər Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun düşmən üzərində qazandığı parlaq Qələbədən, Vətən müharibəsində Azərbaycan oğullarının göstərdiyi şücaət nümunələrindən və şəhidlərin şərəfli döyüş yolundan söhbət açıblar.

Şəhidlərin ailə üzvləri onlara göstərilən diqqət və qayğıya, eləcə də şəhidlərin xatirəsinin uca tutulduğuna görə Azərbaycan Respublikasının Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Sonda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri tərəfindən vətənpərvərliyi tərənnüm edən musiqilər səsləndirilib.

# Silah və hərbi texnika yay mövsümündə istismar rejiminə keçirilir





Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, 2022-ci ilin döyüş hazırlığı planına uyğun olaraq Azərbaycan Ordusunun bütün hərbi hissə və bölmələrində silah, döyüş və xüsusi texnikanın istismarının yay mövsümünə keçirilməsi prosesi aparılır.

Hərbi hissələrdə fəaliyyət göstərən texniki xidmət məntəqələrində döyüş və xüsusi texnikanın yanacaq-sürtkü materiallarının dəyişdirilməsi, həmçinin onlara planlı şəkildə mövsümi qulluq göstərilməsi həyata keçirilir.

Silah və texnikanın yay dövründə fasiləsiz və dayanıqlı istismara hazırlığı hərbi hissələrin döyüş qabiliyyətinin yüksək səviyyədə saxlanılmasına xidmət edir.

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyə Ordusu 21 terrorçunu zərərsizləşdirib



PKK-YPG terrorçuları tərəfindən Suriyanın Ayn-El Ərəb bölgəsindən Türkiyənin Qaziantep vilayətinin Karkamış rayonu və Köprübatı Sərhəd Postu istiqamətində minaatanlardan atəş açılıb. Nəticədə yaralanan Türkiyə hərbçilərindən biri xəstəxanada vəfat edib.

Bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyi açıqlama yayıb. Türkiyə Ordusunun hücuma qarşı gördüyü cavab tədbirləri nəticəsində zərərsizləşdirilən terrorçuların sayı 21-ə yüksəlib.

## Serbiyada məcburi hərbi xidmətin tətbiqi yenidən gündəmdədir



Serbiya Prezidenti Aleksandr Vuçiç ölkədə məcburi hərbi xidmətin yenidən tətbiqini dəstəklədiyini bildirib.

Məcburi hərbi xidmətin müsbət və mənfi tərəflərinin olduğunu vurğulayan A.Vuçiç məsələni müzakirəyə çıxardıqlarını və bununla bağlı hər hansı nəticəyə gəlməyin hələ tez olduğunu deyib.

Serbiyanın müdafiə naziri Neboyşa Stefanoviç isə məcburi hərbi xidmət üzrə işçi qrupunun yaradıldığını açıqlayıb.

Qeyd edək ki, Serbiyada məcburi hərbi xidmətə çağırış 2011-ci ildə ləğv edilib.

## Polşa Ukraynaya 200 ədəd T-72 tankı və onlarla PDM verib



Polşa Ukraynaya 200 ədəddən çox T-72 tankı və onlarla PDM (piyadaların döyüş maşını) təqdim edib.

Polşa radiosu xəbər verir ki, bu miqdarda tank iki briqada qurmaq üçün yetərlidir.

Polşanın Baş naziri Mateuş Moravetski Ukraynaya hərbi texnikanın çatdırılması ilə bağlı məlumatı bir müddət öncə təsdiqləyib. Ölkənin Milli Təhlükəsizlik Bürosunun rəhbəri Pavel Solox isə öz növbəsində Polsat telekanalının efirində hərbi texnikanın sayını açıqlamasa da, onun əhəmiyyətli olduğunu vurğulayıb.

"Konkret say açıqlamayacağam. Polşa Ukraynaya hərbi yardım, o cümlədən T-72 tankları göndərib, göndərir və göndərməyə davam edəcək", - deyə o bildirib.

Pavel Solox deyib ki, Polşa Ukraynaya göndərdiyi hərbi yardımın həcminə görə ABŞ və Böyük Britaniyadan sonra üçüncü ölkədir. Respublika artıq Ukraynaya ümumilikdə 1,6 milyard dollardan çox silah göndərib. Qeyri-rəsmi məlumatlara görə, onlardan bəziləri pulsuz, bəziləri isə kreditlə verilir.

## Yaponiya və ABŞ payızda Hokkaydo adasında təlimlər keçirəcəklər



Yaponiya özünümüdafiə qüvvələrinin hərbçiləri və ABŞ dəniz piyadaları cari ilin sentyabr və oktyabr aylarında Hokkaydo adasında iki həftə davam edəcək birgə təlimlər keçirəcəklər.

Bu barədə "Nikkei" qəzeti məlumat yayıb. Təlimlərdə ümumilikdə 4 minədək hərbçinin iştirakı planlaşdırılır ki, bu da onun həmin adanın tarixində ABŞ dəniz piyadaları ilə yapon hərbçilərin birlikdə təşkil edilən ən böyük hərbi təlimləri olacağını təsdiq edir.

Təlimlərin məqsədi Şərqi Asiya regionunda yarana biləcək təhdidlərə qarşı Yaponiya və ABŞ-ın müqavimətini artırmaqdır.

Yaponiya və ABŞ hərbçiləri tərəfindən Hokkaydo adasında əvvəlki təlimlər 2021-ci ilin dekabrında keçirilib. Həmin təlimlər vaxtı quruda və dənizdə birgə fəaliyyət, həmçinin aviasiyanın uçuş təlimləri və hərbi helikopterlərin yerdəki hədəfləri vurması məşqləri keçirilib.

**AZƏRTAC-ın materialları əsasında**

# Kursantlar Bakının tarixi yerlərini ziyarət etdilər





Ordumuzda şəxsi heyətin asudə vaxtı səmərəli təşkil olunur. Əsgərlərimiz asudə vaxtlarında xalqımızın milli-mənəvi dəyərləri ilə yaxından tanış olur, bədii kitab və jurnallar oxuyur, stolüstü oyunlar oynayır, televiziya proqramlarını izləyir və xidmət etdikləri bölgələrdə yerləşən tarixi yerləri, muzeyləri ziyarət edirlər. Bundan başqa, onların döyüş ruhunun yüksəldilməsi, mənəvi-psixoloji hazırlığının və vətənpərvərlik hissinin artırılması, eyni zamanda, qəhrəmanlarımızın tarixi döyüş ənənələrinin öyrənilməsi məqsədilə də mühüm tədbirlər həyata keçirilir.

Bu qəbildən görülən işlər sırasında Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantlarının mütəmadi olaraq Bakı şəhərinin gəzməli və tarixi yerlərinə, həmçinin muzeylərinə ekskursiya etmələrini misal göstərmək olar.

Bu günlərdə kursantlar Şirvanşahlar sarayına ekskursiyaya gediblər. Burada onlara məlumat verildi ki, Şirvanşahlar sarayı XV əsrdə Şirvanşah I Xəlilullah tərəfindən tikilib. İçərişəhərdə yerləşən bu saray kompleksi Yaxın Şərqin ən görkəmli memarlıq abidələrindən biri sayılır. Kompleksə daxil olan əsas bina - saray tikililər içərisində ən qədimidir. Kompleksə saraydan başqa Divanxana, Keyqubad məscidi, Seyid Yəhya Bakuvinin türbəsi, Murad darvazası (Şərq portalı), Saray məscidi, türbə, hamam və ovdan (su anbarı) daxildir. Saray və kompleksə daxil olan binaların yerləşdiyi ərazi müxtəlif hündürlükdə olan üç həyətə bölünüb. Sarayın özü isə birinci həyətdədir. Dövlət tərəfindən mühafizə olunan Şirvanşahlar sarayı - kompleksi 1964-cü ildən muzey-qoruq statusu alıb. Muzeyin eksponatları içərisində bəzək əşyaları, arxeoloji tapıntılar, saxsı qablar, müxtəlif rəsmlər, milli geyimlər və XVIII-XX əsrlərə aid olan çoxlu sayda məişət avadanlığı sərgilənir. 2000-ci ildə UNESCO tərəfindən İçərişəhər və Qız qalası Dünya mədəni irsi siyahısına daxil edilib.

Sonra kursantlar Qız qalası, Xanəngah, Məhəmməd və Bəylər məscidlərini və İçərişəhərin digər tarixi yerlərini ziyarət edərək, tarixi abidələr haqqında ətraflı məlumatlar öyrəndilər.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

*Məişət*

# “Sağlam əsgər - döyüşə hazır əsgərdir”



Ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Müzəffər Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı nəticəsində Azərbaycan Ordusu gündən-günə güclənir. Şəxsi heyətin döyüş hazırlığı daha da artırılır, sağlamlığı və mənəvi-psixoloji vəziyyəti yüksək səviyyəyə gətirilir. Hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində də böyük işlər görülür. 44 günlük haqq savaşımız nəticəsində azad olunan tarixi torpaqlarımızda yeni hərbi hissələr tikilərək istifadəyə verilir. Hərbi obyektlərdə yerləşən yataqxanalar, yeməkxanalar, idman şəhərcikləri, ictimai-siyasi və istirahət otaqları da təmir olunur, lazımi avadanlıqlarla təchiz edilir.

"N" hərbi hissəsində müasir standartlara cavab verən yeməkxananın girişində şəxsi heyətin qida qəbulundan qabaq əl-üz yumaları üçün nəzərdə tutulan gigiyenik vasitələr yerləşdirilib.

Geniş, işıqlı və səliqə-sahmanı ilə göz oxşayan yemək zalı diqqətimizdən yayınmadı. Yeməkxana növbətçisi bildirdi ki, şəxsi heyətin qida rasionuna göstərilən diqqət qədər məişət şəraiti də yuxarı komandanlığın nəzarətindədir.

"Hal-hazırda biz nahar yeməyini hazırlayırıq. Hər gün səhər yeməyi, nahar və şam yeməklərinin hazırlanmasından öncə personala təlimat verilir, bir daha menyu çatdırılır, adambaşı günlük qida normaları xatırladılır. Burada aşpazlar, zal və mətbəx xidmətçiləri vəzifələrində mülki və hərbi qulluqçular çalışırlar. Əminliklə demək istəyirəm ki, yeməkxanamızda çalışan hər kəs öz vəzifəsini yüksək səviyyədə icra edir. Yeməkxana növbətçisi anbardan ərzağın gətirilməsinə, yeməklərin bişirilməsinə, adambaşına düşən normaya cavabdehdir. Biz də öz işimizin öhdəsindən yüksək peşəkarlıqla gəlirik ki, əsgərlərimizin yeməyi dadlı olsun. Sağlam əsgər - döyüşə hazır əsgərdir", - yeməkxana növbətçisi gizir Vüsal Xəlilov dedi.

Yeməkxana rəisi gizir Coşqun Sarıyev də söhbətimizə qoşularaq, Vüsalın fikirləri ilə razı olduğunu bildirdi. "Tamamilə doğrudur ki, döyüşü qazanmaq üçün, ilk növbədə şəxsi heyətin sağlamlığını düşünməlisən. Sağlamlıq üçün də qidalanma əsasdır. Buna görə də bir nəfərin gündəlik ərzaq payı hesablanaraq əsgərlərimizə verilir. Bədənin tələb etdiyindən az miqdarda qida qəbul edilməməlidir", - deyə gizir Sarıyev sözünü bitirdi.



Baş aşpaz müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Məmiş Ləzgiyev, aşpazlar Tünzalə Əliyeva, Xələsər Şərifova, Valeh Piriyev və digərləri də qeyd edərək, "Əsgərlər bizim övladlarımızdır. Biz onlara diqqət və qayğı ilə yanaşırıq, çünki onlar bizi qoruyurlar", - dedilər.

Daha sonra öyrəndik ki, burada çalışanların arasında şəhid anası da var. Leyla Başirova Vətən müharibəsi şəhidi Başirov Akif Vahid oğlunun anasıdır. Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək, vəzifə borcunu şərəflə yerinə yetirib, şəxsi igidlik və mərdlik nümunəsi göstərdiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilib.

Hər kəslə vidalaşıb, onlara işlərində müvəffəqiyyətlər arzuladıq. Şəhid anasına Allahdan səbir dilədik. Akifin qəlbimizdə daim yaşayacağına əmin etdik.

**Leytenant**
**İbrahim MƏMMƏDBƏYOV**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan millisi qol güləşi üzrə XXXI Avropa çempionatında tarixi uğura imza atıb

Azərbaycan millisi Ruminiyanın paytaxtı Buxarestdə keçirilən qol güləşi üzrə XXXI Avropa çempionatında tarixi uğura imza atıb.

Yığma komandamız yarışda 12 medal qazanıb. Belə ki, yığmamızın üzvlərində İbrahim Cəlilov, İsmayıl Mustafayev, Rəşad Quluzadə, Tərxan Müzəfərov və Orxan İsayev həm sol, həm də sağ qolda bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Daha bir idmançımız Əhməd Mahmudov isə hər iki qolda finaladək yüksələrək iki gümüş medal əldə edib.

Beləliklə, Azərbaycanın yeniyetmə və gənclərdən ibarət qol güləşi üzrə milli komandası 10 qızıl və 2 gümüş olmaqla, ümumilikdə 12 medal qazanaraq XXXI Avropa çempionatında 25 ölkə arasında birinci yerə layiq görülüb.

## Kişi cüdoçularımızdan ibarət millimiz qazandığı qızıl medalların sayına görə dünyada liderlik edir

| | | | | |
|---|---|---|---|---|
| 1 | Azerbaijan | 25 | 16 | 26 |
| 2 | France | 24 | 20 | 41 |
| 3 | Georgia | 14 | 12 | 19 |
| 4 | Uzbekistan | 13 | 12 | 27 |
| 5 | Brazil | 11 | 11 | 5 |
| 6 | Italy | 8 | 16 | 20 |
| 7 | Senegal | 8 | 9 | 8 |
| 8 | Ukraine | 6 | 5 | 10 |
| 9 | Netherlands | 8 | 3 | 9 |
| 10 | Hungary | 8 | 3 | 8 |

Cüdo üzrə millimiz 2022-ci ildə kişilər arasında qazandığı qızıl medalların sayına görə dünyada liderlik edir.

Müxtəlif yaş kateqoriyalarında kişilərdən ibarət yığmamız bu ilin əvvəlindən bu günədək avrokuboklarda və digər beynəlxalq yarışlarda 25 qızıl, 16 gümüş və 26 bürünc medal qazanıb. Nəticədə, Azərbaycanın cüdo üzrə milli komandası dünya reytinqində kişilər arasında sıralamada 67 medalla birinci yerdə, ümumi sıralamada isə üçüncü pillədə qərarlaşıb.

## Şəhriyar Məmmədyarov “Superbet Chess Classic” turnirində indiyədək 3 xal toplayıb



Buxarest şəhərində "Grand Chess Tour" seriyasının ilk mərhələsi olan "Superbet Chess Classic" şahmat turnirində yeddinci turun oyunları keçirilib. Dairəvi sistem üzrə təşkil olunan turnirin ümumi mükafat fondu 350 min ABŞ dollar təşkil edir.

Yarışda ölkəmizi təmsil edən Şəhriyar Məmmədyarov rusiyalı həmkarı Yan Nepomnyaşi ilə mübarizə aparıb. Qara fiqurlarla oynayan şahmatçımız rəqibini üstələyib.

Qeyd edək ki, 2021-ci ildə "Superbet Chess Classic" turnirinin qalibi olan Şəhriyar Məmmədov bu dəfəki yarışda indiyədək 7 turda 3 xal toplayıb.

**AZƏRTAC-ın**
**materialları əsasında**

Baş leytenant Cəlilov İbrahim Elman oğluna məxsus MN № 0053866 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Gizirlər İmanov Mehrab Yadulla oğluna məxsus SQ № 0015076 nömrəli və Hüseynov Əskər Ağarəhim oğluna məxsus SQ № 0021103 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Baş redaktorun müavini
kapitan
Məhəmməd NƏSİRLİ

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

Ünvanımız
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

Növbətçi
Bəxtiyar ƏLİYEV

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi Nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 598
Nüsxə 4673